Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 2022-ci il 5 dekabr tarixli 21 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

# Stimullaşdırıcı lotereyaların təşkili və keçirilməsi Qaydası

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununun (bundan sonra - Qanun) 3.2.4-cü, 7.10-cu və 10.1.7-ci maddələrinə uyğun olaraq hazırlanmışdır və lotereya təşkilatçısı (bundan sonra – Təşkilatçı) tərəfindən stimullaşdırıcı lotereyaların təşkili və keçirilməsi ilə bağlı nəzarətin həyata keçirilməsi, digər məlumat daşıyıcıları və ya elektron kod formasında olan lotereya biletlərinin istifadə qaydaları və onların rekvizitləri və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə (bundan sonra – Nazirlik) stimullaşdırıcı lotereyanın təşkili və keçirilməsi ilə bağlı məlumatların təqdim edilməsi qaydalarını müəyyən edir.

1.2. Bu Qayda iştirakçıların bilik və bacarığına əsaslanan müsabiqələrin təşkili və keçirilməsi hallarına şamil edilmir.

1.3. Bu Qaydada "lotereya bileti" anlayışı lotereyada iştirak hüququ verən, uduşlu olduğu halda uduş fondunun müəyyən hissəsinə və (və ya) uduşa mülkiyyət hüququnu təsdiq edən sənədi, ona bərabər tutulan digər məlumat daşıyıcısını və ya elektron kodu ifadə edir.

1.4. Bu Qaydada istifadə edilən "digər məlumat daşıyıcısı" anlayışı stimullaşdırıcı lotereyanın obyekti olan malın (işin, xidmətin) alıcısına (istifadəçisinə) lotereyada iştirak hüququ verən, uduşlu olduğu halda iştirakçının uduş fondunun müəyyən hissəsinə və (və ya) uduşa mülkiyyət hüququnu təsdiq edən hər hansı bir etiketi, ödəniş çeklərini, əməliyyat nömrəsinin əks olunduğu daşıyıcını və ya elektron kodu ifadə edir.

1.5. Bu Qaydada istifadə edilən "elektron kod" anlayışı kağız daşıyıcıda və ya lotereya iştirakçısının virtual mühitdəki şəxsi kabinetində əks olunan və lotereya iştirakçısının oynadığı konkret lotereya oyununa dair aşağıdakı rekvizitləri özündə ehtiva edən təsadüfi seçilən rəqəm(lər)i və ya ştrix kodu ifadə edir:

1.5.1. lotereyanın adı və forması;

1.5.2. lotereyanın keçirilməsi və ya oynanılması tarixi;

1.5.3. lotereya biletinin nömrəsi və (və ya) seriyası;

1.5.4. lotereya oynanıldıqdan sonra, həmin biletin uduşlu olub-olmaması haqqında məlumat və uduşlu olduğu halda, uduşun məbləği haqqında məlumat.

1.6. Bu Qayda virtual lotereyalara tətbiq olunmur.

## 2. Lotereyanın şərtləri

2.1. Lotereyanın şərtlərinin təsdiq edilməsi haqqında qərar Təşkilatçının icra orqanının rəhbəri tərəfindən imzalanır, möhürlə təsdiq edilir və lotereyanın şərtləri ilə birlikdə təqdim edilir.

2.2. Lotereyanın şərtlərində aşağıdakılar göstərilməlidir:

2.2.1. Təşkilatçı haqqında məlumat (adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, olduğu yer və əlaqə vasitələri);

2.2.2. lotereyanın adı və forması;

2.2.3. lotereyanın keçirilmə müddəti;

2.2.4. lotereyanın keçirildiyi ərazi;

2.2.5. lotereya biletinin sənəd, ona bərabər tutulan məlumat daşıyıcıları və ya elektron kod formasında olması və onların əldə edilməsi qaydaları haqqında məlumat;

2.2.6. lotereyanın uduş fondu haqqında məlumat (lotereyanın (hər tirajın) uduş fonduna daxil olan hər bir uduşun adı və miqdarı, yaxud yalnız pul vəsaitlərindən ibarət olan uduş fondunun uduşlara bölgüsü aparılmadan ümumi məbləği) (əgər tətbiq olunursa);

2.2.7. lotereyanın oynanılması və uduşun müəyyən edilməsi qaydaları (tarix(lər)i daxil olmaqla) haqqında məlumat;

2.2.8. uduşlu lotereya biletlərinin Təşkilatçı tərəfindən qəbulu (elektron biletlər üzrə təsdiqi) və uduşların verilməsi (ödənilməsi) müddəti və qaydası haqqında məlumat;

2.2.9. lotereyanın şərtlərində nəzərdə tutulduğu halda qeyri-pul uduşlarının pul dəyəri haqqında məlumat;

2.2.10. Təşkilatçı tərəfindən uduş fonduna əlavə vəsaitin qoyulmasının və həmin vəsaitin udulmamış hissəsinin geri götürülməsinin mümkün olub-olmaması haqqında məlumat.

2.3. Təşkilatçı qanunla qadağan edilməyən digər məlumatları lotereyanın şərtlərinə daxil edə bilər.

2.4. Stimullaşdırıcı lotereyada iştirak etmək üçün lotereya obyektinin qiymətindən əlavə haqqın alınmasına yol verilmir.

**3. Lotereya biletlərinə (onlara bərabər tutulan digər məlumat daşıyıcılarına) dair tələblər**

3.1. Lotereya biletlərində (onlara bərabər tutulan digər məlumat daşıyıcılarında) aşağıdakı məlumatlar göstərilməlidir:

3.1.1. Təşkilatçının adı və ya loqosu;

3.1.2. lotereyanın adı və forması, o cümlədən "stimullaşdırıcı lotereya" sözləri;

3.1.3. lotereya biletinin nömrəsi və (və ya) seriyası (digər məlumat daşıyıcılarında və elektron kod formasında olan lotereya biletlərində isə identifikasiya nömrəsi və ya ştrix kod);

3.1.4. tirajın uduş fondunun oynanılması tarixi;

3.1.5. lotereya iki və daha artıq sayda tirajdan ibarət olduqda, lotereya biletinin istifadə edildiyi tirajın sıra nömrəsi (lotereya bileti ilə bir neçə tirajın uduş fondlarının oynanılmasında iştirak hüququnun təsbit olunduğu hallar istisna olmaqla);

3.1.6. bu Qaydanın 3.5-ci bəndində qeyd olunmuş məlumatların əldə oluna biləcəyi mənbə.

3.2. Lotereya biletlərində bu Qaydanın 3.1-ci bəndində qeyd edilən məlumatları tam əks etdirmək mümkün olmadıqda həmin məlumatlar lotereya iştirakçılarına kağız daşıyıcılarda və ya elektron formada (elektron poçt ünvanına və ya mobil nömrəyə məlumatın göndərilməsi yolu ilə) təqdim edilməlidir.

3.3. Lotereya biletlərində göstərilən məlumatlar həmin lotereyanın şərtlərində göstərilən məlumatlara uyğun olmalıdır.

3.4. Lotereya biletləri onların istifadə edildiyi lotereyanın (tirajın) eyniləşdirilməsinə, həmçinin onların uduşlu olub-olmamasının müəyyən edilməsinə imkan verməlidir.

3.5. Bu Qaydanın 3.1-ci bəndində sadalanan məlumata əlavə olaraq, lotereya haqqında aşağıdakı məlumatlar Təşkilatçının internet səhifəsində əks olunmalıdır:

3.5.1. lotereyanın uduş fondu haqqında məlumat (əgər tətbiq olunursa);

3.5.2. lotereyanın uduş fondunun oynanılması və ya uduşun müəyyən edilməsi şərtləri haqqında məlumat;

3.5.3. uduşların verilməsi (ödənilməsi) üçün uduşlu lotereya biletlərinin Təşkilatçı tərəfindən qəbul müddəti və uduşların verilməsi (ödənilməsi) qaydaları haqqında məlumat;

3.5.4. lotereyanın keçirilmə hüququnun verilməsihaqqında məlumat.

## 4. Lotereyanın keçirilməsi

4.1. Təşkilatçı lotereyanın keçirilməsinin başlanmasına azı 20 (iyirmi) iş günü qalmış bu Qaydanın 4.2-ci bəndinin tələbləri nəzərə alınmaqla, Nazirliyə aşağıdakı sənədləri kağız daşıyıcıda və ya elektron formada təqdim etməlidir:

4.1.1. lotereyanı keçirmək niyyətində olduğu barədə bildiriş (bildirişdə Təşkilatçının adı, olduğu yer, lotereyanın adı və növü göstərilməlidir) (Əlavə № 1);

4.1.2. lotereyanın şərtləri;

4.1.3. lotereyada istifadə olunacaq lotereya biletinin (elektron kod formasında olan lotereya biletləri istisna olmaqla) nümunəsi;

4.1.4. Təşkilatçının dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin notariat qaydasında təsdiq edilmiş surəti;

4.1.5. Təşkilatçının vergi orqanları tərəfindən uçota alınması haqqında sənədin surəti;

4.1.6. stimullaşdırıcı lotereya tapşırıq müqaviləsinə əsasən keçirildiyi halda həmin müqavilənin lotereyanın keçirilməsini tapşıran şəxs tərəfindən təsdiq edilmiş surəti;

4.1.7. stimullaşdırıcı lotereyanın obyekti (satışı stimullaşdırıcı lotereya ilə müşayiət olunan mal (iş, xidmət)) barədə məlumat.

*4.2. Bu Qaydanın 4.1-ci bəndində nəzərdə tutulmuş sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar Təşkilatçıdan tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi Təşkilatçının razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya Təşkilatçı tərəfindən təmin edilir.*[7]

4.3. Bu Qaydanın 4.1.4-cü və 4.1.5-ci yarımbəndlərində göstərilən sənədlərin surətinin (bu sənədlərdə baş vermiş dəyişikliklərin olması halları istisna olmaqla) eyni Təşkilatçı tərəfindən sonrakı stimullaşdırıcı lotereyaların keçirilməsi məqsədilə edilən müraciətlər zamanı təqdim edilməsi tələb olunmur.

4.4. Nazirlik lotereya şərtlərində göstərilən müddəaların aydınlaşdırılmasını və ya onlara konkretləşdirici müddəaların əlavə edilməsini, habelə ərizədə (bildirişdə) və ona əlavə edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan və imtinaya (qadağaya) səbəb olmayan çatışmazlıqlar aşkar etdikdə, onları təqdim edildiyi tarixdən etibarən 7 (yeddi) iş günü müddətində Təşkilatçıdan tələb edə bilər. Bu halda lotereyanın keçirilmə hüququnun verilməsi barədə qərarın qəbul edilməsi müddətinin axımı dayandırılır və dayandırılmış müddət qərarın qəbul edilməsi müddətinə daxil edilmir. Çatışmazlıqlar aradan qaldırıldıqdan sonra müddətin axımı bərpa olunur.

4.5. Bu Qaydanın 4.1-ci bəndində göstərilən sənədlər Nazirliyə təqdim edildiyi tarixdən 15 (on beş) iş günündən gec olmayaraq o, stimullaşdırıcı lotereyanın keçirilməsini qadağan edə bilər. Bu müddət ərzində stimullaşdırıcı lotereyanın keçirilməsi qadağan olunmadıqda, Təşkilatçı lotereyanı keçirmək hüququnu əldə edir.

4.6. Nazirlik aşağıdakı əsaslarla stimullaşdırıcı lotereyanın keçirilməsini qadağan edə bilər:

4.6.1. bu Qaydanın 4.1-ci bəndində (bu Qaydanın 4.4-cü bəndi ilə müəyyən edilmiş hal nəzərə alınmaqla) göstərilən sənədlər Nazirliyə tam şəkildə təqdim edilmədikdə*(bu Qaydanın 4.2-ci bəndinin tələbləri nəzərə alınmaqla);*[8]

4.6.2. bildirişə və ona əlavə olunmuş sənədlərə bu Qaydanın tələblərinə cavab verməyən və ya təhrif olunmuş məlumatlar daxil edildikdə;

4.6.3. Təşkilatçı Nazirliyin onunla bağlı qəbul etdiyi Qanunla müəyyən olunmuş icrası məcburi göstərişləri icra etmədən, yeni lotereyanın keçirilməsi ilə bağlı müraciət etdikdə;

4.6.4. Təşkilatçının keçirdiyi stimullaşdırıcı lotereyanı keçirməsinə məhkəmə tərəfindən xitam verildiyi tarixdən 6 (altı) aydan az vaxt keçdikdə.

4.7. Təşkilatçı lotereyanın şərtlərində əlavə və (və ya) dəyişikliklər edilməsindən imtina edilməsi barədə qərardan, habelə lotereyanın keçirilməsinin qadağan edilməsindən inzibati və ya məhkəmə qaydasında şikayət edə bilər.

4.8. Keçirilməsi qadağan olunmuş, habelə keçirilmə hüququ əldə olunmamış stimullaşdırıcı lotereyaların keçirilməsinə yol verilmir.

4.9. Təşkilatçı lotereya başlamazdan əvvəl onun şərtlərini *mediada* elan etməlidir.[9]

4.10. Təşkilatçı satışı lotereya ilə stimullaşdırılan malı (işi, xidməti) əldə etmək, habelə lotereyada iştirak etmək barədə təkliflərdə, o cümlədən uduş əldə etmək imkanının ifadə olunduğu təkliflərdə lotereya şərtlərinin və ya onlarla tanış olmaq üçün mümkün olan yerlərin göstərilməsini, yaxud bu barədə məlumatı əldə etmək üçün istinadın verilməsini təmin etməlidir.

## 5. Lotereyanın şərtlərində əlavələrin və (və ya) dəyişikliklərin edilməsi

5.1. Lotereyanın şərtlərinə əlavə və (və ya) dəyişikliklərin edilməsi barədə qərar Təşkilatçının icra orqanının rəhbəri tərəfindən qəbul edilir. Təşkilatçı tərəfindən lotereyanın şərtlərinə əlavə və (və ya) dəyişikliklərin edilməsinə yalnız Nazirliyin icazəsi ilə yol verilir.

5.2. Lotereyanın şərtlərinə əlavələrin və (və ya) dəyişikliklərin edilməsinə icazə almaq üçün Təşkilatçı dəyişilmiş şərtlərlə keçiriləcək ilk oyun tarixinə azı 7 (yeddi) iş günü qalmış Nazirliyə aşağıdakıları təqdim etməlidir:

5.2.1. lotereyanın şərtlərinə əlavə və (və ya) dəyişikliklərin edilməsinə icazənin verilməsi üçün ərizə. Ərizədə Təşkilatçının adı, olduğu yer, lotereyanın adı və forması, lotereyanın şərtlərinə əlavə və (və ya) dəyişikliklərin edilməsi haqqında qərarın tarixi və nömrəsi, habelə həmin əlavə və (və ya) dəyişikliklərin qüvvəyə minməsi tarixi göstərilməlidir;

5.2.2. lotereya şərtlərinə əlavə və (və ya) dəyişikliklərin Təşkilatçının möhürü ilə təsdiq edilmiş və icra orqanının rəhbəri tərəfindən imzalanmış mətni;

5.2.3. lotereya şərtlərinin yeni redaksiyası.

5.3. Bu Qaydanın 5.2-ci bəndində göstərilən sənədlər Nazirliyə daxil olduğu tarixdən etibarən 3 (üç) iş günündən gec olmayaraq Nazirlik lotereyanın şərtlərinə əlavələrin və (və ya) dəyişikliklərin edilməsinə icazənin verilməsi və ya bundan imtina haqqında qərar qəbul edir. Lotereyanın şərtlərində əlavə və (və ya) dəyişiklik edilməsinə razılıq verilməsi və ya bundan imtina edilməsi barədə əsaslandırılmış qərar qəbul edildiyi tarixdən etibarən 3 (üç) iş günündən gec olmayaraq Təşkilatçıya təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

5.4. Nazirlik lotereyanın şərtlərinə əlavələrin və (və ya) dəyişikliklərin edilməsinə icazənin verilməsindən aşağıdakı hallarda imtina edir:

5.4.1. bu Qaydanın 5.2-ci bəndində göstərilən sənədlər Nazirliyə tam şəkildə təqdim edilmədikdə;

5.4.2. Nazirliyə təqdim olunmuş sənədlərə lotereyalar haqqında qanunvericiliyə zidd olan, o cümlədən lotereya iştirakçılarının hüquqlarını məhdudlaşdıran, lotereyanın formasınının dəyişməsinə təsir göstərən, yayılmış lotereya biletlərinin iştirak etdiyi tirajın uduş fondunun tərkibini dəyişən və ya uduş fondunun həcmini azaldan əlavələr və (və ya) dəyişikliklər, habelə natamam və ya qeyri-dürüst müddəalar daxil edildikdə.

5.5. Təşkilatçı lotereyanın şərtlərinə edilmiş əlavələri və (və ya) dəyişiklikləri lotereyanın oynanılması tarixinə azı 3 (üç) iş günü qalmış *mediada* elan etməlidir.

## 6. Elektron lotereyaların təşkili və keçirilməsi

6.1. Təşkilatçı elektron lotereyaların təşkili və keçirilməsini "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış fərdi məlumatların informasiya sistemləri vasitəsi ilə və elektron ticarət haqqında qanunvericiliyə uyğun olaraq və yalnız tirajlı formada həyata keçirir.

6.2. İnformasiya sistemi Təşkilatçı tərəfindən (və ya onun sifarişi əsasında) hazırlanır.

6.3. İnformasiya sistemində aşağıdakı məlumatlar əks olunur:

6.3.1. lotereya iştirakçısının şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN kodu;

6.3.2. lotereya iştirakçısının mobil nömrəsi və elektron poçt ünvanı.

6.4. Lotereya iştirakçısı olmaq hüququnu yalnız 18 yaşına çatmış və könüllü şəkildə lotereyada iştirak etmək niyyətində olan lotereya biletinin sahibləri əldə edir.

6.5. Təşkilatçı elektron informasiya sisteminə nəzarətin təmin edilməsi və lotereyanın adı, forması, tirajın nömrəsi və uduş fondunun oynanılması tarixi, lotereya biletinin nömrəsi və (və ya) seriyası (lotereya biletlərinə bərabər tutulan məlumat daşıyıcıları və elektron biletlər üzrə identifikasiya nömrəsi və ya ştrix kod), habelə bu Qaydanın 6.3-cü bəndində qeyd edilən fərdi məlumatlar üzrə axtarışlar aparmaq məqsədilə Nazirliyi bu sistemə baxış rejimində birbaşa çıxışla təmin edir.

## 7. Tiraj komissiyası

7.1. Lotereyanın uduş fondunun qanunvericiliyə uyğun oynanılmasına nəzarəti həyata keçirən tiraj komissiyası Təşkilatçı tərəfindən yaradılır (elektron lotereyalar istisna olmaqla).

7.2. Tiraj komissiyası üzvlərinin sayı 5 (beş) nəfərdən az olmamaq şərti ilə tək sayda yaradılır.

7.3. Təşkilatçının vəzifəli şəxsləri, onların ailə üzvləri (ər, arvad, valideynlər, övladlar və övladlığa götürülmüş şəxslər, onların ərləri və arvadları, bacılar, qardaşlar,

bacı və qardaş övladları, ər-arvadların bacıları, qardaşları və valideynləri, bacıların ərləri və qardaşların arvadları, valideynlərin bacıları və qardaşları, qəyyumlar və qəyyumluğa götürülənlər), həmçinin stimullaşdırıcı lotereya obyektinin satıcısı (o, stimullaşdırıcı lotereyanın təşkilatçısı olduğu halda) tiraj komissiyasının üzvləri ola bilməzlər.

7.4. Təşkilatçı tiraj komissiyasına üzv ola biləcək şəxslərin siyahısını və onların vətəndaş qüsursuzluğunu təsdiq edən sənədləri tiraj komissiyasının tərkibi formalaşana qədər Nazirliklə razılaşdırmalıdır. Nazirlik siyahı təqdim edildikdən sonra 5 (beş) iş günü müddətində siyahıda olan şəxslərdən hər hansı biri barədə səhv və ya təhrif olunmuş məlumatın təqdim edildiyini aşkar etdikdə, Təşkilatçıya məlumat verir və həmin şəxsin siyahıdan çıxarılmasını tələb edir. Bu müddət ərzində Nazirlik Təşkilatçıya təqdim olunan məlumatların səhv olması və ya təhrif olunması barədə məlumat verməzsə, siyahı Nazirliklə razılaşdırılmış hesab olunur. Siyahı Nazirliklə razılaşdırıldıqdan sonra siyahıya daxil edilmiş şəxslərdən hər hansı birinin vətəndaş qüsursuzluğunu itirdiyi məlum olduqda, Nazirlik həmin şəxsin siyahıdan çıxarılmasını tələb edir. Təşkilatçı siyahıya daxil edilmiş şəxslərdən hər hansı birinin vətəndaş qüsursuzluğunu itirdiyini özü müəyyən etdikdə, həmin şəxsi tiraj komissiyasına üzv ola biləcək şəxslərin siyahısından çıxarır və bu barədə Nazirliyə məlumat verir.

7.5. Nazirliklə razılaşdırılmış siyahıda olan şəxslər təkrar razılaşdırılmadan tiraj komissiyasının tərkibinə daxil edilir. Təşkilatçı bu Qaydanın 7.4-cü bəndi ilə müəyyən edilmiş qaydada Nazirliklə razılaşdırılmaqla siyahıda dəyişiklik edə bilər.

7.6. Təşkilatçı uduş fondunun oynanılmasına azı 1 (bir) iş günü qalmış tiraj komissiyasının üzvləri və həmin üzvləri əvəz edə biləcək daha 5 (beş) şəxs haqqında məlumatı özündə əks etdirən siyahını Nazirliyə təqdim etməlidir. Nazirlik tiraj komissiyasının üzvləri və həmin üzvləri əvəz edə biləcək daha 5 (beş) şəxs haqqında məlumatı aldıqdan sonra tiraj komissiyasının "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununun tələbləri pozulmaqla yaradıldığını müəyyən etdikdə, tiraj komissiyasının tərkibində və (və ya) əvəzləyici şəxslərin siyahısında dəyişiklik edilməsi barədə Təşkilatçıya dərhal, lakin hər bir halda uduş fondunun oynanılmasına azı 12 (on iki) saat qalmış icrası məcburi olan göstəriş verir. Nazirliyə barəsində məlumat təqdim edilmiş siyahı üzrə tiraj komissiyasının üzvlərindən hər hansı biri (bir neçəsi) üzrlü və ya üzrsüz səbəbdən tiraj komissiyasında iştirak edə bilmədikdə, Təşkilatçı bu barədə Nazirliyi məlumatlandırmaqla onu (onları) digər şəxslə (şəxslərlə) əvəz edə bilər.

7.7. Tiraj komissiyasının sədri tiraj komissiyasının üzvləri tərəfindən adi səs çoxluğu ilə seçilir.

7.8. Tiraj komissiyasının qərarları adi səs çoxluğu ilə qəbul edilir. Qərar qəbul edilərkən tiraj komissiyasının üzvü bitərəf qala bilməz.

7.9. Lotereyanın uduş fondunun oynanılmasının nəticələri tiraj komissiyasının üzvləri tərəfindən imzalanan aktla təsdiq olunur.

7.10. Tiraj komissiyası uduş fondunun oynanılması zamanı aşkar olunmuş pozuntular barədə uduş fondunun oynanılmasının nəticələri haqqında aktda qeyd edir və 3 (üç) iş günündən gec olmayaraq Nazirliyə və Təşkilatçıya məlumat verir.

7.11. Nazirlik uduş fondunun oynanılması zamanı lotereyanın şərtlərinin pozulması barədə tiraj komissiyasından məlumat aldığı tarixdən etibarən 30 (otuz) gün müddətində müvafiq qərar qəbul etməli və qərarın surətini Təşkilatçıya təqdim etməlidir.

### 8. Lotereyanın uduş fondu və uduşların verilməsi (ödənilməsi)

8.1. Lotereyanın uduş fondu lotereya şərtlərində müəyyən olunur və həmin fondun oynanılmasına qədər formalaşdırılır.

8.2. Lotereyanın uduş fondu (Təşkilatçının qoyduğu və udulmamış əlavə vəsait istisna olmaqla) yalnız Təşkilatçının lotereyanın iştirakçıları qarşısındakı öhdəliklərin yerinə yetirilməsi məqsədi ilə istifadə olunmalıdır.

8.3. Bir tirajın uduş fondunun oynanılması nəticəsində həmin uduş fondunun udulmamış hissəsi lotereyanın şərtlərində göstərildiyi qaydada növbəti tirajda oynanılır. Təşkilatçının uduş fonduna qoyduğu əlavə vəsaitin udulmamış hissəsi isə Təşkilatçı tərəfindən geri götürülə bilər.

8.4. Lotereyanın hər tirajının uduş fondu oynanıldıqdan sonra 5 (beş) iş günü ərzində uduş fondu və uduşa düşmüş lotereya biletlərinin nömrələri və (və ya) seriyaları barədə məlumat *mediada* elan edilir.[10]

8.5. Lotereyanın hər tirajının uduş fondunun oynanılmasının nəticələrinin açıqlanması həmin tiraj üzrə uduşlu lotereya biletlərinin identifikasiya nömrələrinin (olduqda), yaxud uduşlu lotereya biletlərini və ya onların sahiblərini eyniləşdirmək imkanı verən göstəricilərin, habelə onların hər birinə düşən uduşların *mediada* elan edilməsi yolu ilə həyata keçirilir.[11]

8.6. Təşkilatçı uduşların verilməsi (ödənilməsi) üçün uduşlu lotereya biletlərini lotereyanın şərtlərində göstərilmiş qaydada və müddətdə lotereya iştirakçılarının ilk tələbi ilə qəbul etməlidir.

8.7. Uduşlu lotereya biletlərinin Təşkilatçı tərəfindən qəbulu müddəti həmin lotereyanın (tirajın) uduş fondu oynanıldığı tarixdən etibarən 7 (yeddi) iş günündən gec olmayaraq başlamalı və 90 (doxsan) iş günündən az olmamalıdır.

8.8. Uduş Təşkilatçı tərəfindən uduşlu lotereya bileti qəbul edildiyi tarixdən etibarən 30 (otuz) iş günündən gec olmayaraq verilməlidir (ödənilməlidir).

~~8.9. Təşkilatçı tərəfindən "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə əməl edilməlidir.~~[12]

8.10. Lotereyanın şərtlərində nəzərdə tutulduğu halda, Təşkilatçı lotereya iştirakçısının tələbi ilə qeyri-pul uduşunun dəyərinin pul ekvivalentini ona ödəməlidir. Bu zaman "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununun 3.4.13-cü maddəsinin tələbi nəzərə alınmalıdır.

8.11. Təşkilatçı tərəfindən lotereya iştirakçısına uduşun ödənilməsi zamanı lotereya iştirakçısının şəxsiyyətini təsdiq edən sənəd və lotereya biletinin uduşlu olması yoxlanılmalıdır.

8.12. Uduşların lotereya iştirakçısına əvvəlcədən ödənilmiş kartlar vasitəsilə ödənilməsi tələbləri "Ödəniş kartlarının emissiyası və istifadə Qaydaları" əsasında həyata keçirilir.

8.13. Uduşlu lotereya biletləri barədə məlumat Təşkilatçının istifadə etdiyi informasiya sistemində 3 (üç) il ərzində saxlanılır.

8.14. Uduş fondunun oynanılması zamanı lotereyanın şərtlərinin pozulması barədə tiraj komissiyasından məlumat aldıqda, Təşkilatçı Nazirlik tərəfindən müvafiq qərar qəbul edilənədək uduşların verilməsini (ödənilməsini) dayandırmalıdır.

8.15. Təşkilatçı lotereya obyektinin keyfiyyətinə görə cavabdehdir.

## 9. Lotereyanın dayandırılması və onun keçirilməsinə xitam verilməsi

9.1. Bu Qaydanın 9.3-cü bəndində qeyd olunan hallar istisna olmaqla, lotereyalar haqqında qanunvericiliyin tələblərinin və ya lotereyanın şərtlərinin Təşkilatçı tərəfindən pozulması aşkar edildikdə, Nazirlik həmin pozuntuların aradan qaldırılmasına dair ona yazılı bildiriş göndərir.

9.2. Təşkilatçı bildirişi aldığı tarixdən etibarən 20 (iyirmi) iş günü ərzində aşkar edilmiş pozuntuları aradan qaldırmalı və bu barədə Nazirliyə məlumat verməlidir.

9.3. Nazirlik aşağıdakı hallarda lotereyanın keçirilməsini dayandırır:

9.3.1. Təşkilatçı lotereyanın keçirilməsinin dayandırılması barədə ərizə ilə Nazirliyə müraciət etdikdə;

9.3.2. bu Qaydanın 9.1-ci bəndində maddəsində nəzərdə tutulmuş bildirişin icrası məhkəmə tərəfindən və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dayandırıldığı və ya bildiriş ləğv edildiyi hallar istisna olmaqla, Təşkilatçı həmin göstərişi müəyyən edilmiş müddətdə icra etmədikdə;

9.3.3. lotereyanın təşkili və keçirilməsi zamanı törətmiş olduğu dələduzluq, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan cinayətlərə görə Təşkilatçının vəzifəli şəxsinə və (və ya) tiraj komissiyasının üzvünə qarşı cinayət işi başlandıqda;

9.3.4. lotereyanın təşkilinə və ya keçirilməsinə qanunsuz müdaxilə (uduş şansının dəyişdirilməsinə səbəb olan müdaxilə) aşkar edildikdə;

9.3.5. lotereya şərtlərinin əhəmiyyətli dərəcədə pozulması halları aşkar edildikdə.

Qeyd: Bu Qaydanın 9.3.5-ci maddəsində "əhəmiyyətli dərəcədə pozulma" dedikdə 1000 və ya daha çox lotereya iştirakçısının hüquqlarının pozulması və ya

pozuntu (pozuntular) nəticəsində iştirakçılara dəyən zərərin ümumi məbləğinin 100 000 (yüz min) manat və daha artıq təşkil etməsi başa düşülür.

9.4. Nazirlik bu Qaydanın 9.5-ci bəndində müəyyən edilmiş müddət ərzində lotereyanın dayandırılması üçün əsas olan pozuntuların aradan qaldırılması və zərərin ödənilməsi (olduğu halda) barədə Təşkilatçıdan məlumat aldıqda, 5 (beş) iş günündən gec olmayaraq, lotereyanın dayandırılması barədə qərarı ləğv edir və lotereyanın bərpa edilməsi barədə lotereya təşkilatçısına yazılı bildiriş göndərir.

9.5. Təşkilatçı lotereyanın dayandırılması haqqında Nazirliyin qərarını aldığı tarixdən 30 (otuz) iş günü müddətində bu Qaydanın 9.3-cü bəndində nəzərdə tutulmuş lotereyanın dayandırılmasına səbəb olan halları aradan qaldırmadıqda və ya bu barədə məlumatı təqdim etmədikdə, Nazirlik lotereyanın keçirilməsinə xitam verilməsi barədə məhkəmədə vəsatət qaldırır.

9.6. Təşkilatçı stimullaşdırıcı lotereyanın dayandırılması və ya ona xitam verilməsi haqqında qərarın qəbul edilməsi barədə bildirişi aldıqda, bu barədə məlumatı 1 (bir) iş günü ərzində *mediada* elan etməlidir.[13]

9.7. Lotereyanın dayandırılması və ya onun keçirilməsinə xitam verilməsi Təşkilatçını uduşların verilməsi (ödənilməsi) vəzifəsindən azad etmir.

9.8. Təşkilatçı lotereyanın şərtlərində müəyyən olunan hallarda Nazirliyə qabaqcadan məlumat verməklə həmin lotereyanı dayandıra və ya ona xitam verə bilər. Təşkilatçının təşəbbüsü ilə dayandırıldıqda və ya ona xitam verildikdə, bu Qaydanın 9.6-cı və 9.7-ci bəndləri tətbiq olunur.

9.9. Stimullaşdırıcı lotereyanın dayandırılması və ya ona xitam verilməsi barədə Təşkilatçı tərəfindən verilən elanda aşağıdakılar göstərilməlidir:

9.9.1. Təşkilatçının adı;

9.9.2. lotereyanın adı və növü;

9.9.3. lotereyanın dayandırılması və ya onun keçirilməsinə xitam verilməsi haqqında qərarın qəbul edildiyi tarix və onu qəbul edən səlahiyyətli orqanın və ya məhkəmənin adı;

9.9.4. lotereyanın dayandırılması və ya onun keçirilməsinə xitam verilməsi haqqında qərarın qəbul edilməsi üçün əsas;

9.9.5. keçirilməsi baş tutmamış tirajın nömrəsi və onun uduş fondunun oynanılması nəzərdə tutulduğu tarix;

9.9.6. əvvəlki tirajlar üzrə uduşların verilməsi (ödənilməsi) üsulu, tarix(lər)i və yeri.

9.10. Lotereya dayandırıldıqda və ya onun keçirilməsinə xitam verildikdə, həmin lotereyada iştirak etmək barədə istənilən formada təkliflərin edilməsi qadağandır.

## 10. Lotereyaların reklamı

Lotereyaların reklamı “Lotereyalar haqqında” və “Reklam haqqında” Azərbaycan Respublikasının qanunlarının tələblərinə uyğun olmalıdır.

## 11. Nəzarətin və yoxlamanın həyata keçirilməsi təşkili

11.1. Lotereyaların təşkili və keçirilməsinə nəzarət Təşkilatçı tərəfindən təqdim edilmiş hesabatlar və Nazirlik tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada plan üzrə (növbəti) və plandankənar (növbədənkənar) yerində yoxlamalar əsasında həyata keçirilir.

11.2. Nazirlik tərəfindən Təşkilatçının sahibkarlıq fəaliyyətinin yoxlanılması “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq həyata keçirilir.

## 12. Hesabatların tərtibi və təqdim edilməsinə dair tələblər

12.1. Təşkilatçı aşağıdakı məlumat və hesabatları Nazirliyə təqdim edir:

12.1.1. lotereyanın uduş fondunun formalaşdırılmasını təsdiq edən sənədlərin nüsxələri - tirajın uduş fondunun oynanılmasına azı 30 (otuz) dəqiqə qalmış (elektron lotereyalarda uduş fondunun başlanılması anınadək);

12.1.2. lotereya biletləri haqqında hesabat (Əlavə №2) tirajın uduş fondunun oynanılmasına azı 30 (otuz) dəqiqə qalmış (elektron lotereyalar istisna olmaqla);

12.1.3. tiraj komissiyasının üzvləri haqqında məlumat (Əlavə №3) - uduş fondunun oynanılmasına azı 1 (bir) iş günü qalmış;

12.1.4. tirajın uduş fondunun oynanılmasının nəticələri haqqında tiraj komissiyası tərəfindən tərtib olunmuş aktın bir nüsxəsi (Əlavə №4) - tirajın uduş fondunun oynanılması başa çatdığı tarixdən etibarən 5 (iş) iş günündən gec olmayaraq.

12.2. Lotereya biletləri haqqında hesabatda aşağıdakılar göstərilməlidir:

12.2.1. Təşkilatçının adı;

12.2.2. lotereyanın adı, növü və tirajın nömrəsi;

12.2.3. tirajın uduş fondunun oynanılması tarixi və vaxtı;

12.2.4. uduş fondunun oynanılmasında iştirak edən lotereya biletlərinin sayı və identifikasiya nömrələri.

12.3. Tiraj komissiyasının üzvləri haqqında məlumatda aşağıdakılar göstərilməlidir:

12.3.1. Təşkilatçının adı;

12.3.2. lotereyanın adı, növü və forması;

12.3.3. tirajın nömrəsi (lotereya bir neçə tirajdan ibarət olduqda) və uduş fondunun oynanılması tarixi;

12.3.4. tiraj komissiyasının hər bir üzvünün adı, atasının adı, soyadı və iş yeri.

12.4. Tirajın uduş fondunun oynanılmasının nəticələri haqqında aktda aşağıdakılar göstərilməlidir:

12.4.1. Təşkilatçının adı;

12.4.2. lotereyanın adı, növü və forması;

12.4.3. lotereyanın başlama və bitmə tarixi;

12.4.4. tirajın sıra nömrəsi (lotereya bir neçə tirajdan ibarət olduqda) və onun uduş fondunun oynanılması tarixi;

12.4.5. tirajın uduş fondunun oynanılmasının nəticələrinin dərc olunduğu *media subyektinin* adı və buraxılış tarixi;[14]

12.4.6. lotereya biletlərinin uduşlu olduğunu müəyyən etmək imkanı verən ardıcıl göstəricilər;

12.4.7. tiraj üzrə uduşlu lotereya biletlərinin identifikasiya nömrələri, yaxud uduşlu lotereya biletlərini və ya onların sahiblərini eyniləşdirmək imkanı verən digər göstəricilər və onların hər birinə düşən uduşlar;

12.4.8. tiraj komissiyasının hər bir üzvünün adı, atasının adı, soyadı, iş yeri və imzası.

12.5. Bu Qaydanın 12.1-ci bəndində nəzərdə tutulmuş məlumat və hesabatlar Təşkilatçının icra orqanının rəhbər şəxsinin imza və möhürü və ya gücləndirilmiş elektron imzası ilə təsdiq edilməlidir.

12.6. Təşkilatçı tərəfindən bu Qaydanın 12.1-ci bəndində qeyd olunan hesabat və məlumatlar tələb olunan müddətə Nazirliyə təqdim olunmadıqda Təşkilatçıya Nazirlik tərəfindən 3 (üç) iş günü müddətində icrası məcburi olan yazılı göstəriş verilir. Göstərişdə 7 (yeddi) iş günü ərzində hesabatlarla birgə onların vaxtında təqdim olunmama səbəbi barədə izahat verilməsi tələb edilir.

12.7. Nazirlik tərəfindən hesabatların bu Qaydanın tələblərinə uyğunluğu yoxlanılır, çatışmazlıqlar aşkar edildikdə, hesabatlara müvafiq düzəlişlərin edilməsi və çatışmazlıqların aradan qaldırılması ilə bağlı göstəriş verilir. Hesabatlardakı çatışmazlıqlar Təşkilatçıya bildirildikdən sonra 5 (beş) iş günü ərzində Təşkilatçı həmin çatışmazlıqları aradan qaldıraraq hesabatları və tələb olunan yazılı məlumatları yenidən Nazirliyə təqdim edir.

12.8. Təşkilatçı tərəfindən bu Qayda ilə müəyyən edilmiş qaydada hesabatların təqdim edilməməsi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

| | |
|---|---|
| | "Stimullaşdırıcı lotereyaların təşkili və keçirilməsi Qaydası"na Əlavə № 1<br><br>**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə**<br><br>____________________________________________<br><br>___________________________________ tərəfindən |

**B İ L D İ R İ Ş**

______________________________________________________________________

(lotereya təşkilatçısının olduğu yer)

______________________________________________________________________

(lotereya təşkilatçısının adı)

______________________________________________________________________

(lotereyanın adı və növü)

keçirilməsi barədə sənədləri Sizə təqdim edirik. Xahiş edirik baxasınız.

Vəzifəli şəxsin adı, soyadı: ____________________________________ / _______________ /

Adı, soyadı İmza

Vəzifəli şəxsin vəzifəsi: _____________________________________________________

| | | | |
|---|---|---|---|
| Tarix: /__ /_____ /20___ -__ il | | M.Y. | |

“Stimullaşdırıcı lotereyaların təşkili və keçirilməsi Qaydası”na Əlavə № 2

**Lotereya biletləri haqqında hesabat**

Lotereya təşkilatçısının adı: ______________________________________________

Lotereyanın adı, növü və tirajın nömrəsi: ______________________________________

Tirajın uduş fondunun oynanılması tarixi və vaxtı;________________________________

Uduş fondunun oynanılmasında iştirak edən lotereya biletlərinin sayı ________________

| № | Uduş fondunun oynanılmasında iştirak edən lotereya biletlərinin identifikasiy nömrələri |
|---|---|
| 1. | |
| 2. | |
| 3. | |

Vəzifəli şəxsin ____________________________/ ______________________ /_____________________/

(Adı, soyadı) (Vəzifəsi) (İmza)

M.Y.

| | |
|---|---|
| | “Stimullaşdırıcı lotereyaların təşkili və keçirilməsi Qaydası”na Əlavə № 3 |
| | |

**Tiraj komissiyasının üzvləri haqqında məlumat**

Lotereya təşkilatçısının adı: ______________________________________________________________

Lotereyanın adı, növü və forması: ____________________________________________________

Tirajın nömrəsi (lotereya bir neçə tirajdan ibarət olduqda) və onun uduş fondunun oynanılması tarixi: ____________________________________________________________________

**Tiraj komissiyasının üzvləri**

1.________________ / ________________ /______________________ /__________________________/

(Adı) (Ata adı) (Soyadı) (İşlədiyi yer)

2.________________ / ________________ /______________________ /__________________________/

3.________________ / ________________ /______________________ /__________________________/

4.________________ / ________________ /______________________ /__________________________/

5.________________ / ________________ /______________________ /__________________________/

Vəzifli şəxsin adı, soyadı: _____________________________/ __________________ /_____________/

(Adı, soyadı) (Vəzifəsi) (İmza)

M.Y.

| | |
|---|---|
| | “Stimullaşdırıcı lotereyaların təşkili və keçirilməsi Qaydası”na Əlavə № 4 |
| | |

**Tirajın uduş fondunun oynanılmasının nəticələri haqqında akt**

Lotereya təşkilatçısının adı:____________________________________________________

Lotereyanın adı, növü və forması:________________________________________________

Lotereyanın başlama və bitmə tarixi:_____________________________________________

Tirajın sıra nömrəsi (lotereya bir neçə tirajdan ibarət olduqda) və onun uduş fondunun oynanılması tarixi:_________________________________________________________________

Tirajın uduş fondunun oynanılmasının nəticələrinin dərc olunduğu *media subyektlərinin* adı və buraxılış tarixi:[15]___________________________________________________

Lotereya biletlərinin uduşlu olduğunu müəyyən etmək imkanı verən ardıcıl göstəricilər:______________________________________________________________________

| № | Tiraj üzrə uduşlu lotereya biletinin identifikasiya nömrəsi, yaxud uduşlu lotereya biletinin və ya onların sahiblərini eyniləşdirmək imkanı verən göstəricilər | Lotereya biletinə düşən uduşlar |
|---|---|---|
| 1. | | |
| 2. | | |
| 3. | | |

Tiraj komissiyasının hər bir üzvünün adı, atasının adı, soyadı, iş yeri və imzası

1._____________/ ____________
/_____________________/_________________________/____________/

2._____________/ ____________
/_____________________/_________________________/____________/

3._____________/ ____________
/_____________________/_________________________/____________/

4._____________/ ____________
/_____________________/_________________________/____________/

5._____________/ ____________
/_____________________/_________________________/____________/

Vəzifəli şəxsin adı, soyadı: ______________________________ / ____________________ /__________/

Adı, soyadı Vəzifəsi İmza

| |
|---|
| |
| |
| |

M.Y.